Ədəbiyyat QƏZETİ

26 sentyabr 2025-ci il 29



## Şəmistan NƏZİRLİ

Amansız ölüm qələm yoldaşımız Şəmistan Nəzirlini aramızdan apardı.

Şəmistan Əmiraslan oğlu Nəzirli 1942-ci il avqustun 12-də Qərbi Azərbaycanın Noyemberyan rayonunun Yuxarı Körpülü kəndində anadan olmuşdur. Burada kənd məktəbinin səkkizinci sinfini bitirdiyi il ailəlikcə Azərbaycana köçmüşlər. Orta məktəbi 1960-cı ildə Şabran şəhərində bitirmişdir. 1967-1972-ci illərdə BDU-nun jurnalistika fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Gənc leninçi" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır (1972-1973). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində hərbi-vətənpərvərlik redaksiyasında redaktor, şöbə müdiri (1973-1991), Azərbaycan Dövlət Ensiklopediyasında "Xatirə" redaksiyasının şöbə müdiri (1991-1992), respublika Müdafiə Nazirliyinin Hərbi-Elmi Tədqiqatlar və Tarix İdarəsində şöbə müdiri (1992-1996), Respublika Dövlət Televiziya və Radio Verilişləri Şirkətində "Hərbi proqramlar və salnamə" baş redaksiyasının baş redaktoru (1996-1998), Müdafiə Nazirliyində Hərbi Elmi Mərkəzin hərb tarixi şöbəsində baş elmi işçi vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1958-ci ildə "Sovet Ermənistanı" qəzetində çıxan kiçik bir məqaləsi ilə başlamışdır. 60-cı illərdən dövri mətbuatda oçerk, hekayə və publisist məqalələri ilə müntəzəm çıxış etmişdir. Böyük şairimiz Səməd Vurğunun həyat və fəaliyyəti, azərbaycanlı sərkərdələrin taleyi onun ədəbi-publisistik fəaliyyətinin əsas mövzularıdır. General-leytenant Əliağa Şıxlinskinin "Xatirələrim" kitabı onun tərtibatında 1984-cü ildə Azərbaycan və rus dillərində kütləvi tirajla nəşr edilmişdir. "Vurğun keçib bu yerlərdən", "Vurğun ömrü", "Qəribə talelər", "Əfsanəvi Mixaylo", "Azərbaycan generalları", "Qoridən gələn qatar", "Qacarlar", "Cümhuriyyət generalları", "Yaddaşlarda yaşayan Vurğun", "Ellər Vurğunu", "General Cəmşidxan Naxçıvanski", "Daş Salahlı Məmməd Koxa", "Tam artilleriya generalı Səmədbəy Mehmandarov" və bir çox başqa kitabları ədəbiyyatımızın, mədəniyyətimizin bir çox səhifələrini işıqlandırır, hərb tariximizin salnaməsini canlandırır. "Səməd bəy", "Cümhuriyyət generalları" sənədli filmlərinin ssenari müəllifidir.

Ədəbi uğurları Azərbaycan Jurnalist Həmkarlar İttifaqının "Səməd Vurğun fəxri xatirə diplomu" (1996), İran Dostluq Cəmiyyətinin birinci dərəcəli mükafatı (1995), Qazax Xeyriyyə Cəmiyyətinin "General Əliağa Şıxlinski" mükafatı (1995) ilə dəyərləndirilmişdir. 2023-cü ildə Azərbaycan Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Şəmistan Nəzirlinin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**